*Tarix fakültəsi - 105*

**UOT 94(479.24); UOT 902**

**TARİX DOSTİYEV**
*tarix elmləri doktoru*
*Bakı Dövlət Universiteti*
*Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri*
**dostiyev.tarikh@mail.ru**

**İLHAM MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti*
*Azərbaycanın Maddi Mədəniyyət Tarixi ETL-nın elmi işçisi*
**ilhammammadov@bsu.edu.az**

# AZƏRBAYCANIN MADDİ MƏDƏNİYYƏT TARİXİ ELMİ-TƏDQİQAT LABORATORİYASI: TƏDQİQATLAR , NƏŞRLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/106/93-98

*Məqalədə Bakı Dövləti Universitetinin Tarix fakültəsində Azərbaycanın Maddi Mədəniyyət Tarix elmi tədqiqat laboratoriyasının çöl tədqiqatlarından, əldə olunmuş nailiyyətlərdən, laboratoriyanın nəşriyyat fəaliyyətindən bəhs olunur. Keçən əsrin 90-cı illərində laboratoriyanın çöl tədqiqatlarının nəticələri Azərbaycan arxeologiyasının ümdə problemlərinin həllinə öz töhfəsini vermiş, çöl tədqiqatları dayandırıldıqdan sonra sözü gedən qurum yazılı mənbələr, arxiv materialları, arxeoloji və etnoqrafik fondların materialları, arxeoloji və etnoqrafik ədəbiyyatın təhlili əsasında Azərbaycanın maddi mədəniyyət tarixinin yazılması, tarixi-etnoqrafik atlasın hazırlanması, izahlı lüğətlərin tərtibi istiqamətində araşdırmalarını davam etdirmişdir. Laboratoriyanın elmi fəaliyyəti nəşrlərdə öz əksini tapmışdır.*

*Açar sözlər:* Bakı Dövləti Universiteti, maddi mədəniyyət tarixi, arxeoloji-etnoqrafik ekspedisiya, Əliköməktəpəsi yaşayış yeri, Seyidli kurqanı.

***Giriş.*** Keçən əsrin 80-ci illərinin sonlarında müstəqillik uğrunda mübarizə dönəmində Bakı Dövlət Universiteti, xüsusilə onun Tarix fakültəsi milli hərəkatın önündə oldu. Universitetin ilkin adı bərpa olundu, xalqımızın tarix və mədəniyyətinin dərindən öyrənilməsi, onun maddi mədəniyyətinin, etnogenez və etnik tarixinin problemlərinin obyektiv araşdırılması, obyektiv tarixin yazılması hədəflərdən biri kimi ön plana çəkildi. Hədəfə çatmaq, tarixi həqiqətin üzə çıxarılması, ümdə problemlərin həlli kompleks tədqiqat, yazılı mənbəbələrin, arxeoloji, antropoloji, etnoqrafik, linqvistik, folklor materialların, dəlillərin toplanmasını və təhlilini tələb edirdi. Məqsədyönlü arxeoloji, etnoqrafik tədqiqatlara ehtiyac vardı. Bu istiqamətdə bir sıra keyfiyyət dəyişiklərini, uğurları təmin edən tədbirlər həyata keçirildi. O zaman fakültə dekanı professor Yaqub Mahmudovun təşəbbüsü ilə Bakı Dövləti Universitetinin Tarix fakültəsində Azərbaycanın Maddi Mədəniyyət Tarixi və Dünya azərbaycanlıları elmi-tədqiqat laboratoriyaları təşkil olundu, fakültədə tarixçi-şərqşünas, arxeoloq kadrların hazırlanması üçün ixtisaslar açıldı. Azərbaycan SSR Təhsil nazirinin 1989-cu il 1 fevral əmrinə əsasında 10 mart 1989-cu ildə universitetin strukturunda yeni qurum – Azərbaycanın Maddi Mədəniyyət elmi tədqiqat laboratoriyası yaradıldı. Laboratoriya etnoqraf A.N.Mustafayevin rəhbərliyi ilə “Azərbaycanın maddi mədəniyyət tarixi” mövzusu üzrə tədqiqatlara başladı. Artıq 1990-cu ildə Azərbaycan Respublikasının şi-

mal-şərq, şimal-qərb və cənub-şərq bölgələrinə arxeoloji-etnoqrafik ekspedisiyalar təşkil olundu, uğurlu çöl tədqiqatlarına başlanıldı. Fakültə rəhbərliyi o zaman tədqiqatların prioritet istiqamətlərini tamamilə düzgün müəyyənləşdirərək, respublikanın tədqiqata zəif cəlb olunmuş, arxeoloji və etnoqrafik baxımdan yaxşı öyrənilməmiş, xüsusilə də sərhəd bölgələrindəki abidələrdə arxeoloji qazıntılar aparmağa üstünlük verdi. Keçid dövrünün bütün çətinliklərinə baxmayaraq 1993-cü ilədək ekspedisiyalar çöl tədqiqatlarını davam etdirdi. Həmin illərdə Bakı Dövlət Universiteti respublikada arxeoloji-etnoqrafik çöl tədqiqatlarını təşkil edən yeganə elmi müəssisə idi. Cəlilabad rayonunda Əliköməktəpəsi yaşayış yerində aparılan tədqiqatlar Azərbaycanın erkən əkinçilik mədəniyyətinə aid zəngin, mötəbər mənbələrin əldə olunması ilə nəticələndi, erkən metallurgiyanın meydana çıxması, dulusçuluqdakı uğurlar, Azərbaycanın cənub və şimal memarlıq ənənələrinin qarşılıqlı təsiri və digər məsələlərə dair əsaslandırılmış fikirlər irəli sürməyə imkan verdi. Əliköməktəpəsi yaşayış yerində aparılan arxeoloji tədqiqatların nəticələri, aşkarlanan artefaktlar Muğanın erkən əkinçi əhalisinin maddi mədəniyyətinin öyrənilməsində bu gün də başlıca mötəbər mənbə olaraq qalır [1, s.41-43]. BDU-nun Balakən rayonunda tədqiqat aparan arxeoloji-etnoqrafik ekspedisiyası Təpəçöl adlandırılan ərazidəki kurqanları öyrənmiş, e.ə. IV-II minilliklərinə aid maddi mədəniyyət qalıqları əldə etmiş, bölgənin məskunlaşmasına dair ilkin ehtimallar irəli sürmüşdür [2, s.10-12]. Müşkür arxeoloji ekspedisiyası Azərbaycanın şimal-şərqində, Xaçmaz rayonu ərazisində bir kurqan, bir şəhər yeri və iki kənd tipli yaşayış yerində arxeoloji qazıntılar apardı, müstəsna dərəcədə əhəmiyyətli elmi nəticələr əldə olundu. Xaçmaz rayonunun Seyidli kəndindən qərbdə, Xəzər dənizi sahilindən təxminən 2 km, Seyid daşları adlandırılan ərazidən 80-100 m aralıda yerləşən kurqan planda düzgün olmayan dairə formasında olub, diametri 30-32 m, hündürlüyü 2 metrdən artıq idi. Onun torpaq örtüyünün mərkəzində aşağıya doğru qıf formasında daralan, diametri 2,4 m, dərinliyi 1 m olan çökəklik vardı. Bu əlamət kurqnın qəbir kamerasının hələ qədimdə qarət olması ehtimalını irəli sürməyə əsas verdi. Kurqanın qəbir örtüyündə günəş diskini simvolizə edən qalınlığı 1 m, eni 4,5 olan dairəvi zolaq, kromlex qeydə alındı. Kurqanın planda düzbucaqlıya yaxın formada qəbir kamerası mərkəzdə yerləşmişdi. Kamera 1 m dərinlikdə iki hissəyə ayrılırdı. 2,7 m x 1,3 m qərb tərəf qəbir quyusu olaraq 2,5 m dərinliyədək davam edirdi. Qəbir kamerasında avadanlığın qırıqlar halında, nizamsız səpələnməsi qədimdə kurqanın qarət olunması ehtimalını təsdiqlədi. Qəbir kamerasının qarət olunmasına baxmayaraq kurqanın konstruktiv quruluşu, qırıqlar halında olsa belə keramika nümunələri onun Maykop kurqanları ilə oxşarlığını söyləməyə imkan verdi. Bu kurqan Azərbaycan ərazisində arxeoloji qazıntılarla öyrənilən, son xalkolit dövrünə aid, Leylatəpə mədəniyyəti daşıyıcılarının dəfn adətini sənədləşdirən ilk kurqanaltı dəfn abidəsi oldu [3, c.106]. Leylatəpə mədəniyyəti e.ə.IV minillikdə etnik-mədənim prosesləri, Ön Asiyadan Qafqaza miqrasiyanı sənədləşdirən arxeoloji mədəniyyətdir [4].

Həmin kurqan qazıntısı həm də Ön Asiyadan Şimala Qafqaza miqrasiya xətlərini müəyyənləşdirməyə zəmin yaratdı. Görkəmli arxeoloq, REA müxbür üzvü R.M.Munçayev bildirirdi ki, Şimali Qafqazdakı parlaq Maykop mədəniyyətinin mənşəyi məsələsi ilə məşğul olaraq bu mədəniyyətin Ön Asiya ilə bağlılığına əmin edim. Amma, əvvəllər səhv olaraq miqrasiyanın Qara dəniz vasitəsi ilə baş verdiyini düşünürdüm. Leylatəpə mədəniyyəti abidələrinin aşkarlanması miqrasiyanın İran, Azərbaycan, daha sonra Xəzərsahili Dağıstan və Çeçenistan vasitəsi ilə baş verdiyini ehtimal etməyə əsas verdi [5, s.129]. Bəzi tədqiqatçılar hətta Leylatəpə, Maykop arxeoloji mədəniyyətlərinin ilk Qədim Şərq sivilizasiyalarının ucqarları, onun tərkib hissəsi hesab edir [6, c.281]. Belə qənaətə gəlmək olar ki, Azərbaycan, onun Xəzəryanı bölgəsi Yaxın Şərq sivilizasiyalarının nailiyyətlərinin Şərqi Avropaya ötürülməsində körpü rolunu oynamışdır və BDU-nun Müşkür ekspedisiyasının tədqiq etdiyi Seyidli kurqanı həmin etnik-mədəni prosesləri sənədləşdirən arxeoloji abidələrdən biridir. Ekspedisiyanın Canaxır qədim şəhər yerində və onun nekropolunda apardığı tədqiqatlar da uğurlu olmuş, şəhər xarabalıqlarının Masaha-hunların şəhərlərindən birinə mənsubluğu ehtimalı irəli sürülmüşdür [7]. Ekspedisiyanın Seyidli və Salmanbulaq yaşayış yerlərində apardığı tədqiqatlar orta əsr kəndlərinin öyrənilməsi nöqteyi-nəzərindən böyük elmi əhəmiyyət kəsb edir. Seyidli yaşayış yeri Azərbaycanda orta əsrlərə aid tala tipli kənd məskəninin ilk dəfə arxeoloji qazıntılarla tədqiq olunduğu abidədir. Salmanbulaq yaşayış yeri isə ilk dəfə son orta əsrlərə aid geniş arxeoloji qazıntıtlar aparılan kənd tipli məskənin qalıqlarıdır [8, s.37-44]. Bir məqam da diqqətdən kənarda qalmamalıdır: həmin çöl tədqiqatlarında tarixçi tələbələr, arxeoloq tələbələr fəal iştirak edirdilər.

Azərbaycanın Maddi Mədəniyyət Tarixi ETL-nın ekspedisiyalarının apardığı arxeoloji qazıntılar Universitetin "Arxeologiya və etnoqrafiya muzeyi"nin erkən əkinçilik mədəniyyəti, alban maddi mədəniyyəti və İslam arxeologiyası üzrə kolleksiyasını zənginləşdirdi. Ekspedisiyaların çöl tədqiqatlarında etnoqrafik materialların toplanmasına da böyük diqqət yetirilirdi və sonradan həmin materiallar ölkəmizin ayrı-ayrı bölgələrinin maddi mədəniyyətinin tədqiq olunduğu dissertasiyaların, monoqrafiyaların, eləcə də Azərbaycanın maddi mədəniyyəti tarixi üzrə ümumiləşdirilmiş monoqrafik əsərin yazılmasında istifadə olundu. Bu yöndə Habil Məmmədovun Muğanın, Arif Mustafayevin Azərbaycanın şimal-qərb bölgəsində yaşayan ingiloyların maddi mədəniyyətinə həsr olunmuş monoqrafiyalarını qeyd etmək olar. Laboratoriyanın çöl tədqiqatlarının uğuru 1991 və 1992-ci illərdə Azərbaycanın maddi mədəniyyəti üzrə respublikada aparılan tədqiqatların yekunlarına həsr olunmuş elmi konfransların Bakı Dövlət Universitetində keçirməsini şərtləndirdi [9; 10]. Bu mənada Azərbaycan Respublikası Xalq Təhsili Nazirinin "Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1991-ci il çöl tədqiqatlarının yekunları" mövzusunda respublika elmi konfransının 1992-ci ilin may ayında Bakı Dövlət Universitetində keçirilməsi haqqında əmrinə diqqət yetirək. Əmrdə bildirilir ki, "Azərbaycanın maddi mədəniyyəti tarixinə dair 1991-ci il çöl tədqiqatlarının yekunları" mövzusunda respublika elmi konfransı Bakı Dövlət Universitetində keçirilsin, konfransın yüksək elmi səviyyədə hazırlanıb keçirilməsi təmin edilsin, uyğun yönümlü ali məktəblərdən, elmi-tədqiqat və sahə institutlardan görkəmli mütəxəssislər konfransın işinə cəlb edilsin [11]. Həqiqətən də həmin konfransda Azərbaycanın bir çox görkəmli arxeoloq və etnoqrafları məzmunlu məruzələrlə iştirak etmişdilər [10]. Həmin elmi toplantılar Azərbaycanın Maddi Mədəniyyət elmi tədqiqat laboratoriyasının ciddi tədqiqat mərkəzinə çevrilməsinə və uğurlu tədqiqatlarına dəlalət edirdi.



*Azərbaycanın Maddı Mədəniyyət Tarixi və Dünya Azərbaycanlıları elmi-tədqiqat laboratoriyalarının əməkdaşları*

Arxeoloji ekspedisiyaların təşkilinin 1993-cü ildən sonra dayandırılması, çöl tədqiqatlarının aparılmaması ETL-nın elmi tədqiqat işlərinə mənfi təsirini göstərdi. Bundan sonra əməkdaşlar əsasən yazılı mənbələr, elmi ədəbiyyat və fondlardakı materiallar üzrə araşdırmalarını davam etdirdilər. Professor Arif Mustafayevin 1999-cu ildə dərc olunan "Azərbaycanda sənətkarlıq" adlı sanballı monoqrafiyasında çoxşaxəli ənənəvi sənət sahələri hərtərəfli araşdırılaraq yüksək peşəkarlıqla səciyyələndirilmişdir. Monoqrafiyada Qarabağın, xüsusilə də Şuşanın ənənəvi sənət sahələrinə dair olduqca əhəmiyyətli məlumat verilməsi də diqqətdən kənarda qalmamalıdır [12]. 2009-cu ildə Azərbaycanın Maddi Mədəniyyət elmi tədqiqat laboratoriyasında hazırlanan? Arif Mustafayevin müəllifliyi ilə çap olunan "Azərbaycanın maddi mədəniyyət tarixi" (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat)" monoqrafiyası sanballı tədqiqat əsəri olub xalqımızın əsrlər boyunca əldə etdiyi emprik biliklər və nəsildən nəsilə ötürülmüş sənət ənənələrinin təzahürü olan maddi mədəni irsin etnotipoloji təhlili verilmiş, artefaktlar əsasında maddi mədəniyyət kateqoriyalarının təkamülü izlənilmişdir [13].

Azərbaycanın Maddı Mədəniyyət Tarixi ETL-nın tədqiqatlarının digər bir istiqaməti Azərbaycanın izahlı arxeoloji və etnoqrafik lüğətlərinin tərtibinə yönəlmişdi. Həmin araşdırmaların nəticəsi olaraq Azərbaycan arxeologiya elmində ilk dəfə olaraq "Arxeoloji lüğət" tərtib olunaraq çap olundu. Arxeologiya elm sahəsində işlədilən anlayışların və istilahların şərh edildiyi, arxeoloji dövrlərin səciyyələndirildiyi, arxeologiyada tətbiq olunan metodların izah olunduğu, başlıca arxeoloji mədəniyyətlər və abidələrə dair yığcam məlumatın verildiyi həmin lüğət tələbələrin, magistrantlarin, gənc tədqiqatçıların yararlandıqları vəsaitlərdəndir [14]. Azərbaycanın Maddı Mədəniyyət Tarixi elmi tədqiqat laboratoriyasında tərtib olunaraq nəşrə hazırladığı və 2019-cu ildə çap olunan "Azərbaycanın izahlı etnoqrafik lüğəti" də gərgin əməyin məhsuludur [15].



*Azərbaycanın Maddı Mədəniyyət Tarixi ETL-nın əməkdaşları*

Azərbaycanın Maddı Mədəniyyət Tarixi ETL-nın Azərbaycan Respublikasının ayrı-ayrı bölgələri üzrə hazırladığı tarixi-etnoqrafik atlaslar dəyərli tədqiqat əsərləridir. Etnoqraf Arif Mustafayevin yazdığı həmin əsərləri laboratoriya əməkdaşları nəşrə hazırlamış, 2023-cü ildə "Qazax bölgəsinin tarixi-etnoqrafik atlası", 2024-cü ildə "Mil düzü əhalisinin tarixi-etnoqrafik atlası" çap olunmuşdur. Həmin kitablarda bölgələrin etnocoğrafi səciyyəsi təqdim edilmiş, əhalinin təsərrüfat məişəti, həyat tərzi, yaşayış məskənləri, yaşayış evləri, ənənəvi geyim və bəzəklər, yemək və içkilər, ənənəvi nəqliyyat vasitələri səciyyələndirilmiş və müvafiq illüstrativ materiallarla təmin edilmişdir [16; 17].

Azərbaycanın Maddı Mədəniyyət Tarixi elmi tədqiqat laboratoriyasının fəaliyyətində dünyasını dəyişmiş arxeoloq və etnoqrafların yazdıqları, lakin çap etdirmədikləri əsərlərinin Bakı Dövlət Universitetinin görkəmli elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılığı seriyası ilə nəşrə hazırlaması da əhəmiyyətlidir. Çap olunmuş belə əsərlərdən Bakı Dövlət Universitetinin ilk qadın arxeoloqu Güllü Əbilovanın "Cənubi Qafqazın meqalit abidələri" əsərini qeyd etmək olar.

***Nəticə.*** BDU-nun Azərbaycanın Maddi Mədəniyyət Tarixi ETL-nın hazırladığı "Azərbaycanın maddi mədəniyyət tarixi" adlı sanballı tədqiqat əsərini Azərbaycan elminə böyük töhvə kimi dəyərləndirə bilərik. Belə ki, bu monoqrafik tədqiqat əsəri ilk növbədə xalqımızın emprik bilik, nəsillərin düşüncə və yaradıcılıq istedadını ehtiva edən, onun qürur və özünütəsdiqləmə mənbəyi olan maddi mədəniyyətinin zənginliyini nümayiş etdirir. Müasir inkişaf tədris və tədqiqatın vəhdətini tələb edir. Azərbaycanın maddı mədəniyyət tarixi ETL-nın çöl tədqiqatlarının bərpası, onun maddi-texniki bazasının gücləndirilməsi, Arxeologiya və etnoqrafiya kafedrasının professor-müəllim heyəti ilə müştərək tədqiqatların aparılması sözü gedən laboratoriyanın elmi potensialından səmərəli istifadə etməyə, ETL-nın inkişaf perspektivlərini genişləndirməyə və fakültənin, universitetin elmi-tədqiqat göstəricilərinə töhfəsini yüksəkməyə imkan yaradar.

ƏDƏBİYYAT

1. Ахундов Т.И. Древнейшие обитатели муганской степи (традиция муганского неолита). Кавказ в системе культурных связей Евразии в древности и средневековье. XXX «Крупновские чтения» по археологии Северного Кавказа». Материалы Международной научной конференции. Карачаевск, 2018. с. 41-43.
2. İsmayılov Q.S., Dadaşov Ə.N., Ələkbərov R.A. Balakən rayonunda ilkin arxeoloji tədqiqatlar // Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı, 1991, s. 10-12.
3. Dostiyev T.M. Paleometal dövrü etnik-mədəni proseslərin tədqiqində qəbir abidələri mənbə kimi (Seyidli kurqanının materialları əsasında) // Dövlət və Din, 2021, №3, s. 105-112.
4. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. Bakı: "Elm və təhsil", 2020, 576c.
5. Патриарх Кавказской археологии // Azərbaycan arxeologiyası, 2008, № 1-2, s.126-132.
6. Трифонов В.А. Западные пределы распространения майкопской культуры // Известия Самарского научного центра РАН, 2014, №3, с.276-284.
7. Dostiyev T.M. Canaxır qədim şəhər yerinin tədqiqinin bəzi nəticələri haqqında // Qafqaz Albaniyasının etno-mədəni irsi. Bakı, 2001, s.74-75.
8. Dostiyev T.M. Salmanbulağı yaşayış yerinin arxeoloji tədqiqinin nəticələri // Azərbaycan arxeologiyası, 2000,№ 3-4, s.37-44.
9. Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş konfransın tezisləri. Bakı, 1991.
10. Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1991-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş konfransın tezisləri. Bakı, 1992
11. Azərbaycan Respublikası Xalq Təhsili Nazirinin 10. 04.1992-ci il tarixli 317 saylı əmri.
12. Mustafayev A.M. Azərbaycanda sənəgtkarlıq. Bakı: Altay, 1999, 440 s.
13. Mustafayev A.M. Azərbaycanın maddi mədəniyyət tarixi. Bakı: "Bakı universiteti" nəşriyyatı, 2009, 420 s.
14. Dostiyev T.M. Arxeoloji lüğət. Bakı: Elm və təhsil, 2018, 324 s.
15. Mustafayev A., Məmmədov K. Azərbaycanın izahlı etnoqrafik lüğəti. Bakı, 2019.
16. Mustafayev A. Qazax bölgəsinin tarixi-etnoqrafik atlası. Bakı, 2023.
17. Mustafayev A. Mil düzü əhalisinin tarixi-etnoqrafik atlası. Bakı, 2023.

**ТАРИХ ДОСТИЕВ**
*Заведующий кафедрой Археологии и этнографии*
*Бакинского государственного университета,*
*доктор исторических наук*

**ИЛЬХАМ МАМЕДОВ**
*Научный сотрудник Научно-исследовательской лаборатории*
*истории материальной культуры Азербайджана*
*Бакинского государственного университета*

## НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКАЯ ЛАБОРАТОРИЯ ИСТОРИИ МАТЕРИАЛЬНОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА: ИССЛЕДОВАНИЯ, ПУБЛИКАЦИИ

В статье рассказывается о полевых исследованиях, полученных достижениях, об издательской деятельности научно-исследовательской лаборатории Истории Материальной Культуры Азербайджана Исторического факультета Бакинского Государственного Университета. В 90-е годы прошлого века результаты полевых изысканий лаборатории способствовали решению важных проблем азербайджанской археологии, после прекращения полевых изысканий лаборатория продолжала свои исследования в направлении написания Истории материальной

культуры Азербайджана, составления историко-этнографического атласа и толковых словарей. Научная деятельность лаборатории отражена в публикациях.

*Ключевые слова*: Бакинский Государственный Университет, история материальной культуры, археолого-этнографическая экспедиция, поселение Аликомектепеси, курган Сеидли.

**TARIKH DOSTIYEV**
*Head of Department of Archaeology and Ethnography*
*of the Baku State University, Doctor of Historical Sciences*

**ILHAM MAMMADOV**
*Scientific worker of the Scientific Research Laboratory*
*of History of Material Culture of Azerbaijan of Baku State University*

## RESEARCH LABORATORY OF THE HISTORY OF MATERIAL CULTURE OF AZERBAIJAN: RESEARCH, PUBLICATIONS

The article describes the field research, achievements, and publishing activities of the Research Laboratory of the History of Material Culture of Azerbaijan of the History Faculty of Baku State University. In the 90s of the last century, the results of the laboratory's field research contributed to solving important problems of Azerbaijani archeology. After the cessation of field research, the laboratory continued its research in the direction of writing the History of Material Culture of Azerbaijan, compiling a historical and ethnographic atlas and explanatory dictionaries. The scientific activities of the laboratory are reflected in publications.

*Keywords:* Baku State University, history of material culture, archaeological and ethnographic expedition, Alikomektepesi settlement, Seidli kurgan.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*